**Azərbaycan Respublikası və Uruqvay Şərq Respublikası arasındakı münasibətlər**

**<u>Diplomatik əlaqələrə dair qısa məlumat:</u>**

Azərbaycan Respublikası və Uruqvay Şərq Respublikası arasındakı diplomatik əlaqələr 1994-cü ilin 3 noyabr tarixində qurulmuşdur. Azərbaycan Respublikasının Uruqvaydakı nümayəndəliyi 2014-cu ildə açılmışdır.

**<u>Yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər:</u>**

**Xarici İşlər Nazirləri:**

**27 iyul 2012-ci il** – Elmar Məmmədyarovun rəsmi səfəri;

**<u>Parlamentlərarası əlaqələr:</u>**

Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Uruqvay Şərq parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Uruqvay Milli Konqresində Azərbaycan ilə parlamentlərarası münasibətlər üzrə dostluq qrupu fəaliyyət göstərir.

**21-25 sentyabr, 2011-ci il** – Uruqvay Milli Konqresində Azərbaycan ilə parlamentlərarası münasibətlər üzrə dostluq qrupunun sədri Xaime Trobonun səfəri;

**29 aprel – 2 may, 2013-cü il –**AR Milli Məclisində Azərbaycan-Uruqvay Şərq parlamentlərarası əlaqələr üzrə işçi qrupun sədri Cavanşir Feyziyevin səfəri;

**21-25 may 2013-cü ildə** Uruqvay Parlamentinin Nümayəndələr Palatasının sədri Xerman Kardosonun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Milli Məclisinin sədri Oqtay Əsədovun dəvəti ilə Azərbaycanda səfərdə olmuşdur.

**31 oktyabr – 1 noyabr 2013-cü ildə** Uruqvay Parlamentinin üzvlərindən ibarət nümayəndə heyəti 3-cü Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək məqsədilə Azərbaycana səfər etmişlər;

**11 mart 2015-ci ildə** AR Milli Məclisində Azərbaycan-Uruqvay Şərq parlamentlərarası əlaqələr üzrə işçi qrupun sədri Cavanşir Feyziyevin rəhbərliyi ilə parlament nümayəndə heyətinin səfəri.

**Humanitar sahədə əməkdaşlıq:**

**4-5 oktyabr 2012-ci ildə** Uruqvay parlamentarlarından, siyasi analitiklərindən və XİN əməkdaşından ibarət böyük nümayəndə heyəti II Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün Azərbaycana səfər etmişlər.

**4-5 oktyabr 2012-ci ildə** dünya səviyyəli Uruqvaylı memar Karlos Ottun Azərbaycana səfəri təşkil olunmuşdur.

**2012-ci ilin senytabr-dekabr aylarında** Uruqvay Futbol Asossiasiyası tərəfindən həmin ölkənin qadın futbol klubları arasında paytaxt Montevideoda "Qızıl Kubok - Azərbaycan Çempionatı 2012" adlı 18 klubun mübarizə apardığı çempionat keçirilmişdir;

**6-8 may 2013-cü ildə** Bakıda AR Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun birgə təşkilatçılığı ilə keçirilmiş "Cənubi Qafqaz Forumu"nda iştirak etmək üçün Uruqvayın sabiq prezidenti Luis Alberto Lacalle Azərbaycana səfər etmişdir.

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası ilə Uruqvay Şərq Respublikası arasında 5 sənəd imzalanmışdır.

***Son yenilənmə tarixi: 11.02.2016***